# Dayanıqlı sülhə gedən yol birgə razılaşmalara əməl edilməsindən keçir

**Azərbaycanın 44 günlük Vətən müharibəsində şanlı qələbəsindən sonra Rusiya, Azərbaycan və Ermənistan arasında 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli bəyanatlar imzalandı. Bu razılaşmalar ilk mərhələdə Azərbaycanın üç rayonunun – Ağdam, Kəlbəcər və Laçının döyüşsüz, itkisiz qaytarılması ilə başa çatdı. Eyni zamanda, 10 noyabr bəyanatına əsasən, regiona Rusiya sülhməramlı qüvvələri gətirildi.**



Şübhəsiz ki, razılaşmalar regionda sülh və sabitlik yaranmasına kömək etməkdədir. Atəşin dayandırılması, itkilərin olmaması, bölgədə sabitlik yaranması, məhz bu razılaşmaların müsbət nəticəsi olaraq görünməkdədir. Bu, təbii ki, həm də Rusiya sülhməramlılarının xidmətidir. Doğrudur, arada ermənilərin yeni təxribat niyyətləri barədə məlumatlar yayılır, amma sülhməramlılar insidentlərin böyüməsinə, silahlı qarşıdurmaya çevrilməsinə yol vermir, vaxtında qarşısını almağa çalışırlar.

Bununla yanaşı, qeyd etməliyik ki, bəzən sülhməramlıların fəaliyyəti ayrı-ayrı şəxslər tərəfindən tənqidə məruz qalır. Təbii ki, Rusiya sülhməramlılarının fəaliyyətinə əsassız kölgə salmaq yolverilməzdir. Bu günlərdə bir qrup fransalı jurnalist və diplomatın Azərbaycanın xəbəri olmadan Qarabağa səfərə gəlməsi və Rusiya sülhməramlıları tərəfindən onların geri qaytarılması ilə bağlı məlumat aldıq. Bildirilirdi ki, fransızlara Azərbaycandan icazə almağın vacibliyi xatırladılıb və bu olmadan Qarabağa girişin mümkünsüzlüyü izah edilib.

Həm erməni tərəfi, həm də fransız "səyyahlar" bundan narazı qalıblar. Məsələyə Fransanın Ermənistandakı səfiri qarışıb, hətta baş nazir Nikol Paşinyanla da əlaqə saxlanılıb. Ermənistanın baş naziri, doğrudan da, Moskvada imzalanmış 11 yanvar razılaşması çərçivəsində belə bir bəndə də imza atıldığını təsdiqləyib. Beləliklə, Fransadan olan və özlərini hər cür qanundan, demokratik dəyərlərdən üstün hesab edən "səyyahlar" kor-peşman geriyə– Ermənistana qayıtmalı olublar.

Xatırladaq ki, hadisənin bu şəkildə cərəyan etməsi Ermənistanda ciddi narahatlıq yaratmışdı. Bu barədə fikrini bildirən Ermənistanın Vatikandakı keçmiş səfiri Mikael Minasyan demişdi ki, Fransadan Ermənistana gələn və Qarabağa daxil olmaq istəyən jurnalistlər və digər diplomatik nümayəndələr Laçın dəhlizindən rus sülhməramlıları tərəfindən buraxılmayıb. Onlara bildirilib ki, Qarabağa getmək üçün Azərbaycanda akkreditasiyadan keçməlisiniz.

Rusiya sülhməramlılarının bu addımı Azərbaycanda, şübhəsiz ki, müsbət qiymətləndirildi. Bəzi politoloqlar buna qiymət verərək qeyd etdilər ki, rus sülhməramlılarının fransalı jurnalistləri və diplomatları Qarabağa buraxmaması gözlənilən idi. Çünki Dağlıq Qarabağı, demək olar ki, bütün dünya, eyni zamanda, beynəlxalq təşkilatlar Azərbaycan ərazisi olaraq tanıyır.

Politoloq Fikrət Sadıqov bu barədə fikirlərini belə izah etmişdir: "Biz hazırda addım-addım bütün açıq məsələləri, demək olar ki, bağlayırıq. Hələ ola bilsin ki, bəzi məsələlər açıq qalıb. Ancaq rus sülhməramlıları xarici jurnalistləri və diplomatları Dağlıq Qarabağa buraxmır. Çünki başa düşürlər ki, bu, özbaşınalıqdır. Yəni, bizim ərazimizə xarici vətəndaşı buraxmaq beynəlxalq hüququn normalarına zidd hərəkət etməkdir. Həm də bu hadisə öz-özlüyündə bizim güclü siyasətimizin nəticəsidir. Eyni zamanda, bu, beynəlxalq arenada və regionda atdığımız uğurlu addımların bəhrəsidir. Çünki hamı başa düşməlidir ki, artıq o dövr qurtardı. 44 günlük müharibədən və Azərbaycanın tarixi torpaqlarını geri qaytarmasından sonra heç bir şəxs icazəsiz, dövlətimizin razılığı olmadan ərazilərimizə buraxıla bilməz. Bu, adi bir beynəlxalq praktikadır".

Bəzi kütləvi informasiya vasitələri artıq bir neçə gündür ki, Ermənistan mediasına istinadən Qarabağdakı qondarma rejimin qanunsuz silahlı dəstələrinin – "ordu"sunun buraxılacağı barədə xəbərlər yayır. Eyni zamanda, terrorçu rejimin "xarici işlər nazirliyi" və digər "qurumları"nın da ləğv ediləcəyi, 35 kilometrlik Qırmızı Bazar–Şuşa yolunun Azərbaycanın nəzarətinə veriləcəyi, Xankəndi şəhərində Azərbaycan Bayrağının dalğalanmasına Ermənistan tərəfindən razılıq verildiyi barədə məlumatlar yayılıb.

Bütün bunlar erməni mediasında və teleqram kanallarında tirajlanıb. Hətta bildirilir ki, Qarabağ terrorçularının başçısı, Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən barəsində cinayət işi açılmış Araik Arutyunyan çevrənin daraldığını görərək əməlli-başlı narahat olub. Ermənistan KİV-in məlumatına görə, Arutyunyan bu cür xəbərlərin ermənilər tərəfindən yayılmasından təəssüfləndiyini bildirib və onları tələm-tələsik təkzib etməyə, "dezinformasiya" adlandırmağa çalışıb.

Təbii ki, ermənilər, bununla bərabər, 44 günlük müharibənin acı dərslərini də unutmayıblar. Bilirlər ki, vaxtında lazımi addımlar atılmasa, sabah Azərbaycanın "dəmir yumruğu" yenidən işə düşə bilər. Şübhəsiz ki, bunu regiondakı bütün "oyunçular", o cümlədən, rus sülhməramlıları da bilirlər. Ona görə də mövcud razılaşmalara layiqincə əməl olunması vacibdir və bu, hamının xeyrinədir.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 11 fevral.- S.4.